Uşaqlar üçün Müqəddəs Kitab

təqdim edir



# Nehemyanın Böyük Divarı

Müəllif: Edward Hughes
İllüstrasiya edən: Jonathan Hay
Uyğunlaşdıran: Mary-Anne S.
Tərcümə edən: Günay Əsədova
Təqdim edən: Bible for Children
www.M1914.org

BFC
PO Box 3
Winnipeg, MB R3C 2G1
Canada

©2018 Bible for Children, Inc.
Lisenziya: Bu kitabı satmamaq şərti ilə kitabın surətini
çıxarda bilmək hüququna maliksiniz.

Qüdrətli Fars ölkəsi dünyaya hökmranlıq edirdi. Padşah Artaxşasta Fars ölkəsinə başçılıq edirdi. Bu, onu dünyanın ən qüdrətli başçısı edirdi. Padşahın mühüm köməkçilərindən biri Nehemya adlı Yəhudi idi. Onun işi padşahı yemək zəhərlənməsindən qorumaq üçün padşahın yeməyinin dadına baxmaq idi.



Bir gün Nehemya çox qəmli üz ilə padşahın yanına gəldi. Padşah nəyin baş verdiyini öyrənmək istədi. Nehemya dedi: “Padşah həmişə sağ olsun! Atalarımın dəfn edildiyi yer, şəhərimiz xaraba qalıb, darvazaları yandırılıb”. Nehemya çox illər əvvəl dağıdılmış Yerusəlim haqqında danışırdı.



Padşah Artaxşasta dedi: “Sən məndən nə diləyirsən?”  “İzin ver Yerusəlimə gedim və oranı bərpa edə bilim”. Padşah Artaxşasta razılaşdı.  O, həmçinin Nehemyanı səyahət etdiyi müddətdə qorumaq üçün rəsmi məktub da yazdı.



Padşah hətta çox kömək etdi. O, padşahın meşə nəzarətçisi Asəfə namə göndərdi.  Asəfə şəhərin divarını tikmək üçün Nehemyaya istədiyi qədər ağac verməsi əmr edilmişdi.



Nehemya Yerusəlimə çatanda o, şəhərin məmurlarını topladı və dedi: “Burada acı içindəyik.  Şəhər viranəlik içindədir və darvazaları yandırılıb.  Gəlin yenidən tikməyə başlayaq”.
O dedi ki, padşah Artaxşasta təsdiqləyib, ən mühümü isə, Allah onların tərəfində idi.



Nehemyanın imanı və ruh yüksəkliyi yəqin ki, xalqı ruhlandırırdı.  Onlar razılaşaraq dedilər: “Gəlin tikək”. Nehemya hər bir ailəyə divarın hansı hissəsini düzəltməli olduqlarını dedi.



Ancaq hamı divarı yenidən tikməyə razılaşmadı.  Sanballat adlı bir adam və onun iki dostu Toviya və Geşem Yəhudi deyildilər və divarın yenidən tikilməsini, yaxud



darvazaların düzəldilməsini istəmirdilər.

İş davam etdikcə Sanballat çox qəzəbləndi. O və onun dostları Yəhudilərə xor baxırdılar.  Toviya dedi: “O cansız divarı tikib bitirəndən sonra balaca bir tülkü gələcək və onu dağıdacaq”.  Nehemya cavab vermədi.  Əksinə, o dua etdi ki, Allah onlarla məşğul olsun.



Onların təhqiredici rişxəndlərinin heç bir əhəmiyyəti olmayanda, onlar birlikdə Yerusəlimə qarşı döyüş və mümkün qədər çox problem yaratmağı planlaşdırdılar.



Nehemya yenidən Allahın köməyi üçün dua etdi.  O, həmçinin gecə və gündüz gözətçilər qoydu ki, onlar heç bir sürprizlə üzləşməsinlər.



Yəhudilərin işləri çox ağır idi, onlar əldən düşürdülər.  Bəziləri düşmənin gələcəyindən və işləyərkən onları öldürəcəyindən qorxurdu.  Nehemya yenə də layihəsini dayandırmadı.  O, işçilər ətrafında gözətçilər qoydu və Allahın onların yanında olduğunu və Allahın hər hansı düşməndən daha qüdrətli olduğunu onlara xatırlatdı!





Nehemya yaxşı
nümunə olmağa çalışırdı.
Padşah Artaxşasta onu
insanlardan yemək və
pul tələb etmək hüququ
ilə Yerusəlimin
hökmdarı
təyin etdi.



Amma o, bunu etmədi. O, sadəcə olaraq xalqın yanında oldu, onlar divarı tikərkən onlarla birlikdə ağır işlədi. O, yemək almaq üçün öz pulundan istifadə etdi.

Nəhayət, camaat divarı tikməyi bitirdi və yalnız qapıları əsas darvazalara qoymaq lazım idi.  Sanballat, Toviya və Geşem divarlarda artıq heç bir uçuq-söküyün olmadığını eşidəndə onlar Nehemyaya pislik etməyi planlaşdırdılar.



Onlar Neheyaya onlarla Ono düzənliyində görüşmək haqqında məktub göndərdilər. Amma Nehemya bilirdi ki, onlar onu şəhərdən çıxartmağa və ona pislik etməyə çalışırlar. Nehemya onlara məktub yazdı və onlarla görüşmək üçün işini buraxmayacağını dedi.




Divar nəhayət bitdi və Nehemya onu qorumaq
üçün mühafizəçilər qoydu.


O həmçinin qayda da qoydu ki, darvazalar günəş çıxmayana
qədər açılmamalıdır. Gecə boyu onlar bağlanmalı və hasarlanmalıdır.

Artıq şəhər təhlükəsiz olanda, dünyanın müxtəlif yerlərində sürgündə olan bir çox Yəhudilər Yerusəlimə qayıtdı.  Nehemya yəqin ki, bütün maneələrə baxmayaraq, Allahın ona tapşırdığı işi tamamlamasına görə çox xoşbəxt idi.  O, Yerusəlimdə qaldı və xalqın həmişə Allaha itaət etməsinə kömək etdi.



# Nehemyanın Böyük Divarı

Allahın Sözü, Müqəddəs Kitabdan olan bir hekayədir

Nehemya

"Kəlamının açıqlanması nur saçır".
Məzmur 119:130




35

60

Bu Müqəddəs Kitab hekayəsi bizə, bizi yaradan və Onu tanımağımızı istəyən Allahımızdan bəhs edir.

Allah, Onun günah adlandırdığı pis şeyləri etdiyimizi bilir. Günahın cəzası ölümdür, lakin Allah səni o qədər çox sevir ki, O, Öz yeganə Oğlunu, İsanı Çarmıxda ölmək və sənin günahlarına görə cəzalandırılmaq üçün göndərdi. Sonra İsa dirildi və Göylərə getdi! Əgər sən İsaya inansan və Ondan günahlarını bağışlamasını diləsən, O, bunu edəcək!; O indi gələcək və daxilində yaşayacaq və sən əbədiyyən Onunla birlikdə yaşayacaqsan.

Əgər sən bunların həqiqət olduğuna inanırsansa, onda bunu Allaha de: Əziz İsa, mən inanıram ki, Sən Allahsan və mənim günahlarıma görə ölmək üçün insan oldun və indi Sən yenidən yaşayırsan. Xahiş edirəm, həyatıma gəl və mənim günahlarımı bağışla ki, mən indi yeni həyata malik ola və bir gün Səninlə birlikdə əbədiyyən yaşaya bilim. Sənə itaət etməkdə və Sənin övladın kimi yaşamaqda mənə kömək et. Amin.

**Müqəddəs Kitabı oxu və hər gün Allahla danış! Yəhya 3:16**